# Qərbin dağıdıcı planları Azərbaycanda iflasa məhkumdur



**Onilliklər boyu Qərb təsisatları müxtəlif fondlar vasitəsilə dünyanın əksər ölkələrində dağıdıcı fəaliyyətlərlə məşğul olublar. Onlar müstəqil siyasət yürüdən ölkələrdə pulla ələ aldıqları QHT-ə, KİV-ə öz çirkin sifarişlərini icra etdirərək dövlətləri, xalqları fəlakətə sürükləyiblər. Rəngli inqilab adı altında həmin ölkələrdə qarşıdurmalar yaradıblar, xalqla dövləti üz-üzə qoyublar, hərbi çevrilişlərə əl atıblar.**

Ərəb baharının, Ukraynadakı, Gürcüstandakı rəngli inqilabların, Əfqanıstanda baş verən faciələrin və digər bu kimi təəssüfedici hadisələrin fonunda Qərbin dağıdıcı siyasətinin fəsadlarını aydın görmək mümkündür. ABŞ-nin keçmiş Bayden administrasiyasının və onun Makron kimi müttəfiqlərinin Ukraynada xalqın başına açdığı tragediya dünyanın gözü qarşısında hələ də davam etməkdədir. Narıncı inqilablar nəticəsində Ukraynanı qara günə qoyanlar - bu ölkədə həyata keçirilən çevrilişləri təşkil edən V.Nuland və K.Rays kimilər isə kənara çəkilərək rahat yaşam sürürlər və ukraynalıların əzabları onları zərrəcə maraqlandırmır.

## "Bunu liderlərə inanan cəmiyyət edəcək"

Zamanla həmin ultra liberal qüvvələr NED, NDİ və sair fondlar vasitəsilə Azərbaycanda da rəngli inqilablar təşkil etməyə cəhd ediblər. Ələ aldıqları "qrant agenturası" vasitəsilə ölkəmizdə vətəndaş qarşıdurmasına, çevrilişə nail olmağa çalışıblar.

Soros fondunun maliyyələşdirdiyi "nowar"çular erməni dəyirmanına su tökməklə məşğul olaraq vətənpərvər ruhlu gənclərimizin düşüncələrini bulandırmaqla məşğul olurdular. Məqsəd işğalda olan Azərbaycan torpaqlarının nə sülh, nə də müharibə yolu ilə heç zaman azad edilməməsinə nail olmaq idi. Onlar gənclərimiz arasında bu istiqamətdə təbliğat apararaq Qarabağı unutdurmağa çalışırdılar. Azərbaycan cəmiyyətinə yad olan dəyərlərin təbliği, LGBT fəallarının Azərbaycan ailəsi modelini dağıtmaq istəkləri də bu iyrənc kampaniyanın tərkib hissəsi idi. Amma xalq, iqtidar birliyi Qərb maşalarının xain cəhdlərinin qarşısını qətiyyətlə aldı.

USAID kimi Amerika xalqının pullarını ayrı-ayrı ölkələrdə idbar fəaliyyətə sərf edən fondun fəaliyyəti ilə bağlı dəhşətli faktlar səsləndirən Donald Trampın ABŞ-də hakimiyyətə gəlişi də dünyanın qorxulu kabusuna çevrilən və açıq təbliğ olunan bu biabırçı fəaliyyətlərin sonunun çatdığını göstərir.

Ötən ilin sonunda "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində Prezident İlham Əliyev bu məqama da toxunmuşdu: "Dünyada gördüyümüz tendensiyalar, o cümlədən Trampın Prezident seçilməsi məhz onu göstərən amildir ki, o, elə bizimlədir. Necə deyərlər, ənənəvi dəyərlərə münasibətdə bir qayıqdayıq. Zənnimcə, bəşəriyyət üçün fəlakətli olan tendensiyanı tərsinə çevirə biləcəyik, bax bu, pozğunluq, nümayişkaranə iblislik ki, biz onu Paris Olimpiadasının açılışında gördük. Bu halların qarşısı alınmalıdır. Bunu liderlərə inanan cəmiyyət edəcək, bunu biz edəcəyik. Mütləq. Yoxsa biz azlıqda qalacağıq. Biz isə azlıqda qala bilmərik".

## Milli maraqlarımız qətiyyətlə qorunur

Regionda və dünyada baş verən prosesləri dərindən analiz etmək qabiliyyətinə malik olan Prezident İlham Əliyevin ölkəmiz, xalqımız adına aldığı siyasi qərarlar, atdığı qətiyyətli addımlar Azərbaycanda dağıdıcı rəngli inqilablar ssenarisinin həyata keçirilməsinə imkan verməyib. Yuxarıda bəhs etdiyimiz kimi, bu gün Ukraynada baş verən faciələr məhz vaxtilə bu ölkənin narıncı inqilabların poliqonuna çevrilməsinin ağrı-acılı nəticələridir. Ancaq Azərbaycanın rəhbərliyində Prezident İlham Əliyevin timsalında güclü lider var və o uzaqgörən siyasəti sayəsində həmin təhdidləri vaxtında görərək onların qarşısını almaq üçün lazımi addımlar atıb. Bu da ölkəmizdəki qrant kölələrinin öz Qərb ağalarına xidmət göstərmələrinə mane olub.

2020-ci ildə Azərbaycanın öz gücünə torpaqlarını işğaldan azad etməsi, 2023-cü ildə suverenliyini tam təmin etməsi həm də elə qrant adı altında ölkəmizdə qarşıdurma, parçalanma yaratmaq istəyən xarici qüvvələrə sarsıdıcı zərbə oldu.

Bir sözlə, ölkəmizdə xalq, iqtidar birliyi sayəsində dağıdıcı güclərin xain həmlələrinin qarşısı qətiyyətlə alındı. Azərbaycan cəmiyyəti milli maraqlarımızı, dəyərlərimizi ayaq altına atmaq istəyənlərə qarşı barışmaz mövqedə olduğunu nümayiş etdirdi.

2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində İlham Əliyevi qətiyyətlə dəstəkləyən, yüksək səs faizi ilə onu yenidən dövlət başçısı seçən xalqımız bununla ultra liberal və liberalo-faşist ideologiyası yürüdən keçmiş Bayden-Blinken Administrasiyasına, qoca qitənin müstəmləkə siyasəti yürüdən Makron kimilərinə unutmayacaqları dərs verdi.

Bundan sonra da müstəqil Azərbaycan tutduğu demokratik yolla inamla irəliləyəcək və heç zaman ərazisinin maraqlı dövlətlər tərəfindən rəngli inqilablar, hansısa siyasi eksperimentlər üçün meydana çevrilməsinə imkan verməyəcək. Milli maraqlarımızı təhdid etməyə çalışan bütün qüvvələrin qarşısı daim alınacaq və onların planları iflasa uğradılacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 25 fevral (№42).- S.10.